# ODDAN KEÇMƏYİN YANĞISI,

## *yaxud şair Rafiq Musanın "Od içindən keçən yol" poemasının birinci hissəsi üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Çox işlənən və təkrarlanan bir ifadə var: bədii ədəbiyyat tarixi daha yaxşı öyrədir. Zənnimcə, tam olmasa da, bu ifadədə həqiqət də az deyil. Çünki tarix faktlara söykənir, qurudur, bir çox hallarda soyuqdur. Ən kəskin hadisələr də soyuqqanlı, rəqəmlərlə ifadə olunur, tarixi göstəricilərlə təlqin edilir. Amma bədii ədəbiyyat tarixi hadisələrin baş verdiyi zamanda yaşamış insanların hisslərini, duyğularını daha çox ifadə edir. İnsan hissləri qədər təsirli heç nə yoxdur. Məsələn, konkret olaraq deyirik ki, erməni vandalizminin apardığı işğalçılıq siyasəti nəticəsində bir milyona qədər insan yer-yurdundan didərgin olub. Bu bir milyona qədər insanın çəkdiklərini, ağrı və acılarını yurd həsrəti ilə bağlı daşıdıqları iztirabları konkret olaraq seçilmiş obrazın timsalında vermək oxucuda, yəni dövrlə maraqlanan hər hansı bir şəxsdə ciddi təəssürat yaradır, unudulmaz izlər buraxır.

Şair, yazıçı insan dünyasının əzablara dözüm, yaxud da dözməzlik hisslərini yazıya gətirdikcə mətni oxuyan hər hansı bir şəxs elə o yazının təsiri altında tarixə səyahət edir. Beləliklə, tarixi olay insan hisslərinin təsiri altında yaddaşa hopur.

Şair Rafiq Musa özü də indiki Ermənistan ərazisindən - yəni Qərbi Azərbaycandan deportasiya olunmuş minlərlə ailələrdən birinin təmsilçisidir. Doğulub-böyüdüyü Güllübulaq kəndindən mənzərələri bu gün də onun gözləri önündədir. Çox güman ki, bir çox hallarda həmin yerlərdə qalmış xatirələrini yuxularında görür, yaddaşında yaşayır. Beləliklə, yurddan ayrı düşməyin ağrı-acısını çəkir. Buna görə də onun Qarabağdan ayrı düşmüş və həyatının ahıl çağında yurd həsrətilə yaşamaq məcburiyyətində qalmış Zal əmi obrazına müraciət etməsi təsadüfi deyil. O, konkret olaraq Zal əminin nələr çəkdiyini yazmır. Amma həyatının yaşantılarını sanki poetik lentə çəkir. Bu adam ağır köçkünlük həyatı yaşasa da özünün dünyagörüşündən ayrılmır. İnsani münasibətləri sanki pozulmaz bir qanun kimi yaddaşında qoruyub saxlayır. Biz onu qonağa münasibətində, insani yanaşmalarında görürük. Qonaqpərvərliyi, doğmalığı... oğlunun dostlarına münasibətinin fonunda bir azərbaycanlı kişisinin bütövlüyü təqdim olunur:

Başlar qarışmışdı sözə-söhbətə,
Deyib-gülürdülər məclisdəkilər.
Nədənsə Zal əmi dəymirdi gözə,
Soruşduq, dedilər, işi var, gələr.

İstədik fürsəti verməyək əldən,
"Yıq-yığış" eləyib aradan çıxaq.
Bir də bu ocağa yolumuz düşsə,
Günahı şairin üstünə yıxaq.

Deyəsən, nəvələr "satmışdı" bizi,
Hər kəs məşğul idi "yır-yığış"ıyla.
Bir anın içində Zal əmi gəldi,
Aldı üstümüzü sərt baxışıyla.

-Hara tələsirsiz çörək kəsməmiş,
Bəlkə, xətrinizə dəyənlər oldu?
Taxta qapınızı döymədim sizin,
Ya dəmir qapımı döyənlər oldu?

Atadan-babadan belə olmuşuq,
Dost-dosta arxadı, dost dosta sipər.
Heç zaman salmazlar ayrıseçkilik,
Dost olan dostunun çörəyin kəsər!

Onun həyatının mənasını ifadə edən insanilik qanunları var. Bu, dədə-baba adət-ənənələrinə əsaslanır. O, dostu dosta arxa bilir, dayaq bilir. Onun düşüncəsinə görə, dost gərək dostundan kənar gəzməsin, dostu ilə daim təmasda olsun. Dostlar gərək bir-birinin əhvalından həmişə xəbərdar olsun, bunun üçün sıx ünsiyyət əsas şərtdir. Onun danışıq tərzi, qonaqlara yanaşması əslində, bir adət-ənənə kitabıdır. Ən başlıcası, o, təbiəti etibarilə xalqı təmsil edir. Biz onun simasında Azərbaycan xalqının təbiətini görür, hiss edirik:

- Xoş oldu bizlərə sizləri görmək,
İndi qoy tərpənək, tələsirik biz.
- Sizləri belə tez yola salmaram,
Ay oğul, olmayın belə səbirsiz.

Belə öyrədiblər, belə bilmişik,
Qılınc kəsməyəni duz-çörək kəsər.
Dinləyin siz məni, xeyirdə-şərdə
Dost-dostun evinə hər vaxt tələsər.

Mən hələ bir yana, getməyinizi
Tovuz bibiniz də yaxına qoymaz.
Evimiz qonaqlı-qaralı olub,
Qonağa ziyafət verməsən, olmaz.

Zal əmi o ki var danladı yenə,
Sonra sevgisini bizlə bölüşdü.
Yenidən mətləbə qayıdammadıq,
Əvvəlki sözümüz kəsərdən düşdü.

Yaman çaşdırmışdı, bilmədik necə
Ondan üzr istəyib, düşək minnətə.
Kişinin sözləri tutmuşdu bizi,
Axır ki, son qoyduq sözə-söhbətə.

Qonaqlar sanki sıxılır, atüstü görüşlə "aradan çıxmaq" istəyirlər. Amma Zal əminin sərt baxışı, kəskin münasibəti qonaqların cəsarətini əlindən alır. Şair isə bu məqamı xüsusi obrazlı ifadələrlə təqdim edir. Sanki Zal əminin onları "kəməndə salan" sözlərindən kənara çıxa bilmirlər. Çox güman ki, R.Musa az müddətli görüş zamanında özünün dərin müşahidə imkanlarını səfərbər edib. Sanki obyektivə çəkilmiş kimi obrazı yadında saxlayıb. Hətta onun fərdi xasiyyət cizgilərini, təbəssümünü, sərt baxışını... hamısını özününküləşdirib. Və yazıya da müşahidələrini çox asanlıqla gətirə bilib:

Sözünü sərt dedi, demədi boşa,
Bizlərə tuşlandı sözün kəməndi.
Bizi danlayaraq, deyəcəyini
Yerində söylədi, əsirgəmədi.

Dedik ki, Zal əmi, tələsirik biz,
Getsək də, haçansa gələcik yenə.
Zal əmi yenə də vermədi macal
Bir kimsə danışa, bir kimsə dinə.

Sonra nəzər saldı hər kəsə bir-bir,
Elə bil, Zal əmi hirsini yedi.
Sonra nəyi isə saldı yadına:
-Bir azca gözləyin, gəlirəm, - dedi.

Bildik ki, o, bizi buraxan deyil,
Bu yaşa hörmətlə gəlib çatıbdır.
Bildik ki, o, bizdən əl çəkməyəcək,
Göydə axtarırmış, yerdə tapıbdır.

Görəsən, yenidən hara tələsdi,
Bəlkə, kimlərəsə nə isə olmuş!
Sonradan öyrənib bildik ki, kişi,
Kabablıq quzunu kəsib-soyurmuş!

R.Musa təsvirlərini bir obrazın üzərində cəmləmir. Ailə mühitinin özünü bütövlükdə müşahidəsini alır və bu ona imkan verir ki, nə qədər ata obrazı mükəmməl işləyirsə, bir o qədər də ana obrazına doğmalıqla yanaşır.

Biz R.Musanın təsvirlərində böyük bir ailənin anasını da görürük. Bu, R.Musanın təbirincə desək, onun Tovuz bibisidir. Bu ana Zal əmi ilə birgə 9 övlad böyüdüb. Onların cəmiyyət üçün faydalı olmalarına görə gözlərilə od götürüb. Əgər belə demək mükünsə, doqquz övladı böyüdüb boya-başa çatdırmaq əslində, bir qəhrəmanlıqdır. Bu da qonaqpərvərlik üçün sanki Zal əminin dediklərini tamamlayan doğmalığı, mehribanlığı ilə aradakı yadlığı tamam yox edir. Qonaqlar da sanki öz analarının süfrəsində əyləşmiş kimi olurlar:

Fürsəti vermədi Tovuz bibimiz,
Stolu bir az da yaxına çəkdi.
Bilirdik, sinəsi doludur onun,
Amma ki, bilmirdik nə deyəcəkdi.

Mətləbə bir azca uzaqdan gəldi,
Dedi ki, çox xoşdur bu günün çağı.
Hərdən də qayıtdı gənclik yaşına,
Açaraq sandığı, tökdü pambığı.

Dediyi tərifdən hiss elədik ki,
Razıdır bugünkü qonaqlarından.
Sözünün əvvəli, sonu Zal əmi,
Razılıq eylədi uşaqlarından.

Tovuz bibimizi xoşdur dinləmək,
Bizləri yaxını, doğması bilmiş.
Şirindən şirinmiş sözü-söhbəti,
Sinəsi tükənməz xəzinə imiş.

-Bir vaxt ayrı düşdük yurd-yuvamızdan,
Gedəni-gələni yola salmadıq.
Kəsdi üstümüzü qəfildən düşmən,
Qonşuyla-qohumla halallaşmadıq.

Əlbəttə, söhbət təkcə qonaqpərvərlikdən getmir. Doğrudur, süfrədə hər cür naz-nemət var. Hörmətli qonaq üçün kəsilmiş qurbanlıq ətin kababı da, qazan yeməkləri də hazırdır. Amma əsas məsələ böyük ailənin artıq babası və nənəsi olan bu insanların keçmişlə bağlı təəssüratları daha maraqlıdır.

Şair R.Musa sözünün əvvəlini də, axırını da yaxşı bilir, az-az danışır. daha çox onunla birlikdə qonaqlıqda olanların söhbətini dinləmək onun əsas marağını təmin edir. Əslində, R.Musa bir ailənin taleyini bir poetik romanını yazır. Amma həm də taytuşlarının, müasirlərinin bu ailə romanına münasibətlərini də unutmur. Həyat həmişə maraqlıdır. Gərək onun maraqlı tərəflərini görə biləsən və bu maraqlı tərəflərdən mənəvi zövq alasan.

Yuxarıda artıq qeyd etdim ki. R.Musa təkcə bir ailənin taleyini yox, həm də müasirlərinin düşüncə tərzini, tarixə, zamana münasibətini qələmə alır. Bir az yarı zarafat olsa da, İsmayıl əfəndinin sözləri burada sanki yerinə düşür: "Biz Zal əminin timsalında bütövlükdə elat aləmini görürük. Tərəkəmə həyatının dağılmaqda olan ənənələrinin yaşarılığını müşahidə edirik".

Həyat istəsək də, istəməsək də insanlığı sınağa çəkir. Doğrudur, bu sınaqlarda çoxları dözümsüz olur. Necə deyərlər, dostluğu qoruya bilmir, çətinlikləri onun mənəvi mühitini dağıdır. Amma biz əsər boyu insani kriteriyaları sərt məntiqlə qoruyan insanların arasında oluruq.

Şair sözünə davam edərək bir daha keçmişləri yada salır və hər dəfə yeni bir əhvalatı, yeni bir məzmunu yaddaşına yığır, Zal əminin hüzurunda əyləşmiş dostlarının diqqətinə də bunları çatdırmağa çalışır. Əsər canlı bir ruhla yazılıb. Oxucu özü də sanki süfrə ətrafında mənəvi mühitlərini yaşayan insanların arasında olur:

Köhnə qonşuları xatırladıqca,
Bibimiz danışdı ağızdolusu,
Sözünün sonunda aydın oldu ki,
Yaxşıdan-yaxşıdı təzə qonşusu.

Deyib-gülməyi var, olur ki, bəzən
Dindirmək olmayır Tovuz bibini.
Unutmaq istəmir, hərdən kökləyir,
Həsrətin qəm yüklü sarı simini.

Bibini, nədənsə, fikir apardı,
Köksünü ötürdü hər ötən ilə.
Elə bil, dilinə düşmüşdü düyün,
Görəsən, nə oldu bibiyə belə.

Nəmli gözlərindən hiss elədik ki,
Ürəyi qırıqdı, qəlbi incədi.
O, dözə bilməyir bu qəribliyə,
Düşmənə nifrəti yetərincədi.

O ağır illərdən söhbəti salıb,
Dərdini boşaltdı Tovuz bibimiz.
Gördük ki, bibinin halı-hal deyil,
Dedik, yaxındadır ilk qələbəmiz.

*(Davamı 11-ci səhifədə)*

# ODDAN KEÇMƏYİN YANĞISI

*(Əvvəli 10-cu səhifədə)*

Hərdən bizə elə gəlir ki, R.Musa təsvirlərində təfərrüata varır. Bəlkə də, təsvir xırdalıqlarının üzərindən sürətlə də keçmək olardı. Amma görünür, şair qonaqpərvərlik təfərrüatlarını təsadüfi düşünmür. O, mövcud mənzərə ilə xalqın yaddaşından itməkdə olan ənənələri yenidən yaşarılığa qaytarır. Elə bu məqsədlə də təfərrüatlardan çəkinmir. təsvirinə görə süfrənin nizamını cavanlar hazırlayırlar. Bəlkə də bununla R.Musa restoran qonaqlıqları ilə ev qonaqlığı arasındakı fərqi diqqətə çatdırır. Yəni ev adamlarının yaratdığı süfrə əslində, insani münasibətlərin dərinləşməsinə xidmət edir:

Cavanlar süfrəyə əl gəzdirdilər,
Süfrədə səliqə-sahman düzəldi.
Deyəsən, işləri nizamlamışdı,
O qədər keçməmiş Zal əmi gəldi

Elə bil bir azca yorğun kimiydi.
Bunu hiss elədik ləng yerişindən.
Gülümsər üzündən biz anladıq ki,
Deyəsən, razıdı gördüyü işdən.

Zal əmi əyləşib yuxarı başda,
Yenidən hər kəsə diqqət ayırdı.
Naz-nemət düzüldü masa üstünə,
Süfrənin çeşidi göz oxşayırdı.

-Qonağa hər zaman dəyər vermişik,
Bizdə adət belə qayda belədi.
Baxıb qonaqlara, gülümsəyərək
Hər kəsə yenidən "xoş gəldin" dedi.

Yaxından-uzaqdan soraq eylədi,
Zal əmi öyrəndi kimliyimizi.
Süfrə ətrafında əyləşənlərə
Yenidən tanıdıb, sevdirdi bizi.

Məclisdə hər kəsin öz yeri var. dədə-babadan belə bir misal var ki, süfrənin - məclisin başı-ayağı olmaz. Amma ağsaqqal hansı tərəfdə oturursa, ora da məclisin başı hesab olunar.

Şair R.Musanın tərənnümündə xüsusi yer alan şair dostunun, yəni Ə.R.Xələflinin ailədəki yerini də unutmur. Məclisdəkilərin hamısı ona xüsusi hörmətlə yanaşır. Bununla da atanın böyük övlada münasibəti haqqında Azərbaycan xalqının ənənəvi münasibətini diqqətə çəkmiş olur. Zal əminin söhbətləri hamını təsirləndirir. O, danışığında, nitqində çox məntiqlidir. Azərbaycan cəmiyyətində qonağa münasibəti elə onun münasibəti ilə də qavramaq, özü də düzgün qavramaq mümkündür.

Hər kəsin əhvalı xoşdur, çünki dost məclisinə yığışıblar. İndi hər kəsin mənəvi mühitində ailə romanının yeni fəsilləri yazılmış olur. Buraya yığışanların heç birisi bu günləri unutmayacaqlar. Rafiqin də məqsədi budur ki, işğal həyatı yaşayan yurdun təmsilçiləri olan insanlar öz ümidlərini itirməsinlər:

Məclis axarında, çal-çağırında,
Tanrıdan nə gözəl pay düşüb bizə.
Budaqda yarpaqlar yellənən kimi
Quşlar da boylanır məclimizə.

Hər kəsin ürəyi boşalıb-dolur,
Söz-sözü çəkməkdə, söhbət-söhbəti.
Burda hər bir kəsin ürəyincədi
Ürək rahatlığı, söz məhəbbəti.

Saməddin işini yaxşı biləndi,
Biganə kəsləri qətiyyən sevmir.
Heç kəsin xətrinə dəymir İsmayıl,
Kimsəyə göz üstə qaşın var demir.

Atını saxlayıb düşəsi deyil,
Köhnə xatirələr yenə də dəbdi.
Arabir içinə çəkilir Arif,
Elə bil, dəvəsi ölmüş ərəbdi.

Mircəlal qardaşım öz aləmində,
Sən deyən elə də yox dərdi-səri.
Kiminsə xətrinə dəyməsin deyə,
Üfürə-üfürə deyir sözləri.

Şairin müasirləri olan ziyalıların Qarabağla bağlı söhbətləri, bu ailənin mənvi dünyasına münasibətləri yaddaqalan şəkildə təsvir olunub.

İslamın danışığı, söhbətləri, hər kəsin diqqətini çəkir. Onun məlumatlı olduğu, zəngin bildikləri dövrlə, zamanla uyğunlaşdırması Azərbaycan xalqının tarixi faciələri ilə bağlı dedikləri çox təsirlidir. İslam Qəribli professor, filologiya elmləri doktorudur. Tədqiqatlarının aparıcı sahəsi təkcə ədəbiyyatımızla yox, həm də elə ədəbiyyatımızla bağlıdır. Onun Məhəmməd Hadi ilə bağlı söhbətləri o qədər təsirlidir ki, sanki Qarabağ faciəsinin yaşantılarını özündə ehtiva edir.

Saməddinin təbiəti də şairin təsvirlərində yetərincədir. O, Əməkdar müəllimdir, pedaqoji sahədə xidmətləri var. Maraqlıdır ki, o da yeni nəsillərin dünya görüşünün formalaşmasında müdriklərin rolunu xüsusi qiymətləndirirə Əlbəttə, Arifin, Mircəlalın, Vilayətin, Hüseyn Ağayevin xatirələri də maraqlı təəssürat yaradır. Onlar Ə.R.Xələfli ilə bağlı tələbəlik düşüncələrini yada salır, bəzi məqamları onun ata-anasına da danışırlar.

Bütün hallarda indi yaşlaşmış ataana oğullarının cəmiyyətdəki mövqeyini, yerini onun dostlarının söhbətlərindən daha yaxşı görürlər. Bu da onlarda bir fəxarət hissi yaradır.

Əsas odur ki, İ.Qəriblinin Xələfli haqqında dediklərini şair obrazlı duyğulanmaları ilə oxucuya çatdırır:

İslamı dinləmək necə də xoşdur,
Hər sözü, kəlamı deyildir adi.
Elə bil, dünyanın qaranlığına
Məşəl yandırıbrdı Məhəmməd Hadi.

Bizim Xələflinin söhbəti-sözü
Zamanın dəyəri, haqqın səsidi.
Fikrinin qayəsi, sözün axarı
Yalçın qayaların şəlaləsidi.

Şairin şeiri can rahatlığı,
Şeirlər hər kəsin könlünə düşdü.
Hər ayın, hər ilin öz gözəlliyi,
Xoş günün biri də bu günə düşdü.

Aradir meh əsir yan-yörəmizdə,
İstidə mehin də sərinliyi var.
Nədənsə budağı tərk etməyibdi
Bizə dəstək olan nəğməli quşlar.

Ürəkdən keçəni gözlər danışır
Fikrini söyləsən, söyləməsən də.
Ürəkdən keçəni gizlətmək olmur,
Bunu istəsən də, istəməsən də.

Göründüyü kimi, İ.Qəribli şair Ə.R.Xələflini "bizim Xələfli" deyə söhbətinin mövzusuna gətirir. Bu ifadənin özündə təkcə dostluq münasibəti yox, həm də Xələflinin özünün kimliyi daha əhatəli şəkildə çatdırılır. Hərə bildiyindən danışır, onlar təklif edirlər ki, şairin özünü də dinləmək - həm də şeri ilə dinləmək daha yaxşı olardı. Xələfli son dövrlər yazdığı şeirlərini oxuyur. Bu, hər kəsdə bir məmnunluq yaradır. Nəhayət, şair R.Musa dostlarının fikirlərini belə ümumiləşdirir:

Var olsun bu evin mərd oğulları,
Hər eldə-obada yandırsın ocaq.
Bugünkü məclisin əvəzi yoxdu,
Bu da bir tarixdi, ysdda qalacaq.

Elə bil, gülüşü çıxmışdı yoxa,,
Deyəsən, Zal əmi narahat idi.
Dilində dolaşdı ürək sözləri
Yaman qəhərləndi, deyə bilmədi.

Xəyalən boylandı çox uzaqlara,
Götür-qoy edirdi aranı-dağı.
Deyib-gülməyində olsa da belə,
Gözdən yayınmırdı narahatlığı.

Gizlədə bilmədi dərdi-sərini,
Eləbil, dərdini bizlə bölüşdü.
Ötüb-keçənləri xatırlayarkən
Söhbər Cəbrayıldan- Vətəndən düşdü.

Göylərə boylanıb ah çəkdi kişi,
Sanki dərdlərini endirdi yerə.
Vətən həsrətini çəkərək önə,
Söhbəti apardı ağır illərə.

Qədimdən bəri Azərbaycan xalqının adətində qonağın qarşılanmasından tutmuş, onun yola salınmasına qədər bütün məqamlar ev sahibinin diqqətində, nəzarətində olur. Şairin təsvirlərində də bu adət-ənənə unudulmur. Zal əminin qonaqlarla bağlı narahatlıqları hələ də keçib getməyib. Amma hər halda bu insanın az da olsa ömrünə təskinlik qatan məqamlar da var. Qonaqların söhbətləri, danışıqları onu inandırır ki, torpaqlarımız işğaldan azad olunacaq, inanlar doğma yerlərinə, yurdlarına qayıda biləcəklər. Əslində, bu inam elə Zal əminin də, onun həyat yoldaşı Tovuz bibinin də ömrünə ömür calamaqdır.

Şair də şübhəsiz borclu qalmır. Bu evin oğullarının timsalında yurdun azad olunmasına necə bir mənəvi hazırlıq olmasını görür və diqqətə çəkir.

Burada sözarası xatırladıram ki, Ə.R.Xələflinin nəvələri yəni Zal əminin nətitcələri 44 günlük savaşda mərd döyüşçülər kimi iştirak etdilər. Onlar düşmənin yenilməsinə qədər müharibədə oldular. Sanki öz savaş gücləri ilə babalarının ruhlarını şad etdilər.

Rafiq Musa isə yazır:

-Bu günə-sabaha atlanacaqdı,
Qisasa hazırdı yurd oğulları.
Düşmən səngərini yarıb keçəcək
Aslan oğulları, qurd oğulları.

Bilirəm, haçansa bilinəcəkdir
Yaxşının öz yeri, pisin öz yeri.
Acı xatirələr şirinləşəcək,
Böyük arzularla dönəcik geri.

O yerlər hər zaman qəlbimizdədi,
Yaddan çıxmayacaq, necə ki sağıq.
Düşmən sevinməsin, o gün gələcək,
Doğma yurd yerinə qayıdacağıq.

Boy atıb böyüyür igidlərimiz,
Bu ağrı-acılar haçansa sovar.
Bu günün, sabahın mərd oğulları
Vətənə dönəcək, geci-tezi var.

Hələ ki ,belədi dünyanın işi,
Səmtinə dönəcək dünyanın çarxı.
Araya girmişdi bir ağır sükut,
Zal əmi susmuşdu, nə desin axı?!

Bəli, R.Musa dövrümüzün istedadlı və tanınmağa layiq şairidir. O, bu əsəriylə Qarabağın mənəvi yaddaşda yaşarılığını təmin etmək üçün istedadına güvənib, zəhmətinə güvənib və nəticədə dəyərli bir əsəri araya-ərsəyə gətirib. O, doğru deyir ki, elin ağsaqqalı, böyüyü cəmiyyətin yaddaşının qaraçuxasıdır. Onun təsvirlərindən, tərənnümündən tanıdığımız Zal əmi də məhz bu missiyanın daşıyıcısıdır:

Zal əmi haqlıdır hər kəlməsində,
Hə kəsin kişiyə öz hörməti var.
Əmi deyənləri təstiqləyirdi
Əminin sözünə qahmar çıxanlar

Halidi dünyanın hər bir işindən,
O bilir dilini hətta daşın da.
Həyatın hər üzü bəllidi ona,
Tarixin izi var daş yaddaşında.

Heç zaman sözünü deməyib boşa,
Zaman qiymətini verəcək bir gün.
Bir gün haqq-ədalət zəfər çalacaq,
Nə qaçqın qalacaq, nə də ki köçkün.

Müdriklər sözlərinin evini yaxşı bilir. Hansı sözü necə deməyi də, nə vaxt deməyi də unutmurlar. Bu da əlbəttə, dinləyicinin yaddaşına həkk olunur. Çünki dinləyici sözün mahiyyətini yaxşı qavrayır, sözün sahibinin məntiqi hökmü yaddaşa təsiri şərtləndirir.

R.Musanın tərənnümündən görünür ki, onun yaratdığı Zal əmi obrazı da havayı söz deyən deyil. Hər söz şəxsiyyətin kimliyinin göstəricisidir:

Yadlara yer verdik, qonşu ol dedik
-Yada salmayırlar indi heç nəyi.
Onları hər zaman sürüyəcəklər
"Dənizdən-dənizə" torpaq istəyi.

Bu fikir onlara hələ çatmayıb:
Uzaq qohumlardan qonşu yaxşıdı.
Xəbislər, nankorlar hardan biləydi
Doğruluq bəşərin məhək daşıdı.

Dönüb boylanmırlar keçmişlərinə
Milləti millətdən ayrı seçənlər.
Arxadan zərbəni əsirgəmədi,
Qonşu olmadılar bu qaniçənlər.

Şair doğru deyir, bir vaxt Azərbaycan xalqı öz torpaqlarına gələnlərin hamısına məmnunluqla qucaq açıb. Amma təəssüf ki, elə məxluqlar peyda oldular; onlar bu yurda xəyanət elədilir. Ermənilərin Qarabağa köçürülməsinin tarixi məlumdur. Amma vaxt gəldi onlar ərazi iddiasına qalxdılar. Ancaq dədə-babadan belə bir misal var: "Gen qaz, dərin qaz, özün düşərsən". Azərbaycan ordusunun dəmir yumruğu torpağımıza yağı kəsilmiş olanları məğlub etdi, onları cəzalarına çatdırdı və yerimizdən, yurdumuzdan birdəfəlik qovdu. Şair Rafiq Musanın məntiqi bu tarixi bizə diktə edir.

*(Davamı var)*